# Ordumuzun təchizatı və texnoloji modernləşmə

## Azərbaycanın müdafiə sənayesi sürətli inkişaf yolundadır



**Müasir dünyada müdafiə sənayesi hərbi təhlükəsizlik anlayışı ilə məhdudlaşmır. Bu sahə dövlətlərin siyasi çəkisini artıran, texnoloji inkişafı sürətləndirən, həmçinin gəlir gətirən strateji istiqamətə çevrilib. Azərbaycan da bu reallıqları nəzərə alaraq müdafiə sənayesinə yanaşmasını son illərdə əsaslı şəkildə yenidən formalaşdırıb.**

Uzun müddət Azərbaycan müdafiə sənayesinə klassik dövlət modeli ilə yanaşırdı. Bu sahə əsasən daxili tələbatın ödənilməsinə yönəlmişdi. Lakin zaman göstərdi ki, beynəlxalq təcrübədə ən uğurlu modellərdən biri dövlət nəzarəti ilə özəl sektorun fəal iştirakının uzlaşdırılmasıdır. Məhz bu yanaşma son iki ildə Azərbaycanda tətbiq olunmağa başlayıb.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində vurğuladığı kimi, son iki il ərzində bu sahədə dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar yaradıldı. Bu qərar həm maliyyə yükünün azalmasına, həm də istehsal imkanlarının daha çevik və effektiv qurulmasına şərait yaratdı. Hazırda bu sahə ciddi lisenziya mexanizmi ilə tənzimlənir və indiyədək 15 özəl şirkətə fəaliyyət icazəsi verilib, onların 7-si artıq hərbi təyinatlı məhsul istehsalına başlayıb.

Müdafiə sənayesinin real gücü rəqəmlərdə özünü açıq şəkildə göstərir. 2024-2025-ci illər ərzində yeni istehsal sahələrinin yaradılması və mövcud müəssisələrin genişləndirilməsi üçün 1 milyard manat sərmayə qoyulub. Bu vəsaitin təxminən yarısı özəl sektorun payına düşür ki, bu da sahəyə biznes marağının artdığını göstərir.

İstehsal həcmləri də diqqətçəkicidir. Dövlətimizin başçısı müsahibəsində deyib ki, keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal olunub. Bu məhsulların əsas hissəsi Azərbaycan Silahlı Qüvvələrinin təminatına yönəlsə də, ölkəmizin ixracatında da hərbi sənaye mühüm yer tutur. Azərbaycan bu gün hərbi təyinatlı məhsullarını 20-yə yaxın ölkəyə ixrac edir. Bu fakt göstərir ki, ölkəmiz həm istehlakçı, həm də regional və beynəlxalq bazarlarda tanınan istehsalçıya çevrilməkdədir. Beləliklə, müdafiə sənayesi artıq təhlükəsizlik məsələsi ilə yanaşı, eyni zamanda gəlir gətirən sahədir. "Biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq", - deyə Prezident İlham Əliyev bildirib. Xüsusilə qlobal silah bazarında qiymətlərin kəskin artması fonunda bu sahə Azərbaycan üçün alternativ valyuta mənbəyi rolunu oynaya bilər. Qarşıya qoyulan qısamüddətli hədəf isə kifayət qədər iddialıdır: "Qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır". Bu hədəfin 3-4 il ərzində reallaşdırılması real hesab olunur.

Müdafiə sənayesinin inkişafı yalnız məhsul istehsalı ilə məhdudlaşmır. Azərbaycan dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə birgə müəssisələr yaradaraq pilotsuz uçuş aparatları, artilleriya qurğuları və müxtəlif silah-sursat növlərinin istehsalını planlaşdırır. Prezidentin sözləri ilə desək: "Biz bu sahəyə bir neçə prizmadan baxırıq… müasir kadr potensialı yaratmaq və ixrac imkanlarımızı genişləndirmək".

Bu yanaşma uzunmüddətli perspektivdə ölkənin texnoloji müstəqilliyini gücləndirəcək və ixtisaslı kadrların formalaşmasına xidmət edəcək. Azərbaycanın müdafiə sənayesi artıq ilkin mərhələdəki "idxaldan asılılığı azaltmaq" məqsədini geridə qoyub. Müdafiə sənayesi Silahlı Qüvvələrimizin təchizatı ilə yanaşı, iqtisadi inkişafın, ixracın və texnoloji modernləşmənin mühüm alətinə çevrilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu proses sürətlə genişlənir və yaxın illərdə cəmiyyət bu sahədə əldə olunan nəticələri daha açıq şəkildə görəcək.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 7 yanvar (№ 2).- S.7.